# "PeşəFest-2025"in coğrafiyası genişlənir

## TOVUZ

**Tovuzda gənclərin peşə təhsilinə marağının artırılması və peşəkar istiqamətləndirilmənin təşviqi məqsədilə "PeşəFest-2025" festivalı keçirilmişdir.**

Tədbirin açılışında rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxış edərək Tovuzda peşə təhsilinin inkişafı istiqamətində görülən işlər, dövlətin bu sahəyə göstərdiyi diqqət və gənclərin əmək bazarına hazırlıqlı şəkildə daxil olmalarının vacibliyi barədə danışıb. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf yolu və Prezident İlham Əliyevin gənclərə, onların gələcəyinə, həmçinin əmək bazarının tələblərinə uyğun peşələrin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsidir ki, ölkəmizdə bu cür mühüm tədbirlər həyata keçirilir.

Sonra Milli Məclisin deputatı Nizami Səfərov və Dövlət Məşğulluq Agentliyi idarə heyətinin sədri Sadiq Əliyev çıxış etmişlər. Bildirmişlər ki, "PeşəFest-2025"-in ölkənin 11 iqtisadi rayonunu əhatə edən interaktiv karyera yönümlü layihədir və festival gənclərə və yeniyetmələrə müxtəlif peşələri tanıtmağa, onlara peşə seçimində dəstək olmağa xidmət edir.

Rəsmi hissədən sonra tədbir iştirakçıları festival çərçivəsində nümayiş olunan peşələrlə yaxından tanış olmuşlar. Müxtəlif sahələr üzrə peşəkarlar öz ixtisaslarına uyğun təqdimatlarla çıxış edərək təmsil etdikləri peşələrin mahiyyəti, iş imkanları və gələcək perspektivləri barədə ətraflı məlumat vermişlər. Tədbirdə festival iştirakçıları peşə seçimi ilə bağlı faydalı tövsiyələr almışlar.

Təşkil edilmiş 14 peşə üzrə maarifləndirici stendlər, interaktiv zonalar, master-klaslar və maraqlı yarışmalar gənclərin böyük marağına səbəb olmuşdur.

## BİLƏSUVAR

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi (DMA) tərəfindən həyata keçirilən "PeşəFest-2025"-in növbəti dayanacağı Biləsuvar şəhəri olub.**

"Peşə öyrən, gələcəyini qur!" devizi ilə təşkil edilən festival gənclərin və şagirdlərin peşə seçiminə dəstək olmaq, onların karyera istiqamətində doğru addım atmalarını təmin etmək məqsədi daşıyırdı.

Heydər Əliyev parkında keçirilən tədbirdə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Milli Məclisin deputatı Bəhruz Məhərrəmov, DMA-nın sədr müavini Hasil Abbasov, eləcə də ətraf rayonlardan dövlət və özəl təşkilatların rəhbər şəxsləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Çıxış edən F.Qürbətov rayonun yeniyetmə və gənclərinin peşələrə marağının artırılmasında və əmək bazarının tələblərinə uyğun peşə seçimi etmələrində "PeşəFest"in rolundan danışaraq müasir peşələrin yaranmasından, bu peşələrə yiyələnməyin faydasından söz açıb.

Milli Məclisin deputatı B.Məhərrəmov isə gənclərin uğurlu karyera qurmalarında, müasir peşələr barədə dolğun məlumat almalarında və onlarda əyani təsəvvürün formalaşmasında "PeşəFest"in xüsusi rolu olduğunu qeyd edib.

Sonra peşəkarlar öz ixtisaslarına uyğun təqdimatlarla çıxış edib, təmsil etdikləri peşələrin xüsusiyyətlərini diqqətə çatdırıblar. Onlar festival iştirakçılarına peşə seçimi ilə bağlı öz tövsiyələrini veriblər. Festivalda 14 peşə (kibertəhlükəsizlik, data analitika, helpdesk, 3D animator, zinət əşyalarının dizayneri, turizm təşkilatçısı, dülgər, avtomobil təmiri üzrə çilingər, qida mühəndisliyi, qənnadıçı, xilasedici, barista, diş texniki və baytar) üzrə maarifləndirici tədbirlər təşkil olunub.

## ASTARA

**Astara Olimpiya İdman Kompleksində keçirilən "PeşəFest" tədbiri gəncləri bu günün və gələcəyin ən aktual peşələri ilə tanış edərək onlara öz bacarıqlarını sınamaq, yaradıcılıqlarını göstərmək və gələcək karyeraları üçün sağlam addım atmaq imkanı yaradıb.**

"Peşə öyrən, gələcəyini qur!" devizi ilə təşkil edilən festivalda RİH-in başçısı Qəzənfər Ağayev, Milli Məclisin deputatları Rəşad Mahmudov, Vasif Qafarov, DMA-nın İdarə Heyətinin sədri Sadiq Əliyev, Astaranın və ətraf rayonların dövlət və özəl təşkilatlarının rəhbərləri, yeniyetmə və gənclər, habelə ictimaiyyət nümayəndələri iştirak ediblər.

Festivalda təşkil edilmiş 14 peşə (kibertəhlükəsizlik, data analitika, helpdesk, 3D animator, zinət əşyalarının dizayneri, turizm təşkilatçısı, dülgər, avtomobil təmiri üzrə çilingər, qida mühəndisi, qənnadıçı, xilasedici, barista, diş texniki və baytar) üzrə maarifləndirici stendlər, interaktiv zonalar, master-klaslar və maraqlı yarışmalar gənclərin böyük marağına səbəb olub.

*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 25 sentyabr (№205).- S.12.